## 2023 – Heydər Əliyev İli

# Əbədi işıq saçan Günəş

**Ola bilsin, bu gün “kompüter əsrinin uşaqları” onun haqqında eşitməsinlər. Ancaq o, öz dövrünün – zəhmətin, işgüzarlığın hünər sayıldığı və insana şan-şöhrət, nüfuz, hörmət-izzət gətirdiyi bir zəmanənin seçilən insanlarından biri idi. Ən ali titulların daşıyıcısı kimi bütün qapılar, necə deyərlər, üzünə taybatay açılırdı. Bəs necə, Sosialist Əməyi Qəhrəmanı kimi imtiyaz sahibinin “bir sözünü iki eləmək” kimin, yaxud hansısa qurumun həddi deyildi.**

**Az-çox, sovet dönəminin qayda-qanunlarına bələd olan və bu qanunlarla yaşayanların yaxşı yadındadır ki, bu mərtəbəyə ucalmaq hər kəsə müyəssər olmazdı. Atasının vaxtsız ölümü ilə bütün planlarının (o dövrdə plan elə yaşam tərzinin özü demək idi – S.H.) alt-üst olduğunu düşünərək kənd kitabxanaçısı kimi sakit işini atıb pambıqçılığa keçmək məcburiyyətində qalan və bunun onun həyat tərzini kökündən dəyişəcəyini, yolunda geniş üfüqlər açacağını heç ağlına belə gətirməyən sadə kənd qızı taleyinin hazırladığı sürprizləri qarşılamaq üçün meydana atıldı. Sonrası isə muncuq sapa necə düzülürsə, bax, elə o cür də ardıcılıqla gəldi. Qısa, çox qısa bir zamanda ad-sanı ovaxtkı sovet məkanında yayıldı. Adına şeirlər yazıldı, mahnılar qoşuldu. Uşaqdan-böyüyə çoxlarının məmnuniyyətlə yerində olmaq istədiyi, mənsub olduğu əzəmətli şöhrətə qibtə ilə yanaşıldığı bir ünvana çevrildi.**



Bəli, bu ünvanın sahibi ömrünü – gününü Sabirabad rayonunun Qaratəpə kəndi ilə əbədilik bağlayan əmək qəhrəmanı Fatma xanım Hüseynovadır. Onu vaxtilə eyni titulların daşıyıcılarından fərqləndirən xüsusi bir özəlliyini də vurğulamaq lap yerinə düşər ki, o əksər Sosialist Əmək qəhrəmanları kimi sovet dövründə ilişib qalmadı, asanlıqla yeni dövrün ab-havasına, yazılmış və yazılmamış qanunlarına uyğunlaşdı. Hətta bununla da kifayətlənmədi, Qaratəpə bələdiyyəsinin sədri kimi məsul vəzifəni daşımaqla bərabər, fermer təsərrüfatında bir neçə ailənin işləyərək ruzi qazanmalarına imkan yaradan sahibkara çevrildi. Yəni dövran dəyişsə də, şərtlər tam fərqli olsa da, o, bütün bu fərqliliklərin öhdəsindən gəlməyi bacardı və mütləq həqiqəti bir daha təsdiqləmiş oldu ki, insan üçün zaman fərqi önəmli deyil, əsas canda olan təpərdi, özünü sübut etməyə hesablanmış iradə və əzmdi.

Əlbəttə, onu başqalarından tamamilə ayıran xüsusiyyətlərdən biri də, heç şübhəsiz ki, ona dayaq duranların, məşhurluğuna bilavasitə səbəbkar olanların taleyindəki rolunu həmişə minnətdarlıqla qiymətləndirməsidir. Konkret halda isə hörmətli Fatma xanım üçün bu rolun sahibi məhz ulu öndər Heydər Əliyevdir. Olub-keçənləri göz önünə gətirəndə özü də tez-tez kövrəlir, bu dahi şəxsiyyətin adı hər çəkiləndə qəlbini həzin duyğular, xoş xatirələr çulğayır. Özünün də dediyi kimi, taleyini ən vacib bir məqamda Heydər Əliyevlə kəsişdirdiyinə görə Allaha sonsuz minnətdarlığını gizlətmir. Haqlı olaraq deyir ki, bu xoşbəxtlik zamanında başqa pambıqçıya da nəsib ola bilərdi. Ancaq mənim işdən qorxmamağım, fəallığım onun diqqətini çəkdi və bu da, heç şübhəsiz ki, sonrakı həyatımı, uğurlarımı müəyyənləşdirən ən vacib amil oldu.

Bir az onun ömür tarixçəsinə nəzər salsaq, bu fikirlərində nə qədər haqlı olduğunu aydın şəkildə görə bilərik.

Fatma Hüseynova, bir az əvvəldə qeyd etdiyimiz kimi, ömrünü Qaratəpə kəndi ilə bağlamış olsa da, əslində onun doğulduğu kənd hazırda Hacıqabul rayonunun inzibati ərazisinə daxil olan indiki Abdulabad, ovaxtkı Abdulian kəndidir. Sadə kolxozçu ailəsində dünyaya gəlmişdi. İş elə gətirir ki, 1948-ci ildə Sabirabad rayonunun Pakrovka kəndinə (indiki Qaratəpə) köçməli olurlar. Elə onun da əmək fəaliyyəti bu kənddə başlayır. 1963-cü ildə atası rəhmətə gedir, ailə maddi çətinliklərlə üzləşir və bu da Fatma Hüseynovanı kitabxanaçılıqdan kolxoz işinə yönləndirir. Ancaq özü də bilmirdi ki, bu addım onun ömür yolunu həmişəlik müəyyənləşdirəcək. Burada işləyə-işləyə təhsilini artırmaqdan da qalmır. Gəncədə ali təhsil alaraq aqronom ixtisasına yiyələnir. 1972-ci ildə kəndlərindəki Lenin adına kolxozda pambıqçılıq briqadiri təyin olunur. Sonrası da məlumdur – bir-birini əvəzləyən uğurlar, nailiyyətlər, bütün bunları təsdiqləyən medallar, fəxri adlar və s.

Üç çağırış Azərbaycan SSR Ali Sovetinin, iki çağırış isə SSRİ Ali Sovetinin deputatı seçilən Fatma xanım SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 5 qızıl, 3 gümüş, 2 bürünc medalına layiq görülmüş, “Fəxri pambıq ustası” adını almışdır. Azərbaycan Kommunist Partiyasının XX, XXV, XXX qurultaylarının nümayəndəsi olmuşdur. Sovet dövrünün ən ali mükafatını – Sosialist Əməyi Qəhrəmanı adını qazanmışdır.

Müstəqil Azərbaycan Respublikasının 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunmaq da onun bioqrafiyasının ən qürurlu səhifələrindəndir. Özü də iftixarla deyir ki, sovet dövrünün qızıl ulduzunu yaxama ulu öndər Heydər Əliyev, bu ordeni isə möhtərəm Prezidentimiz İlham Əliyev taxmışdır.

Ölkəyə ikinci rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyev sevimli əmək qəhrəmanını –Fatma xanım Hüseynovanı diqqətindən kənarda saxlamamış, həmişə olduğu kimi, bu dəfə də öz nəvazişini ondan əsirgəməmişdir.

Onun 2002-ci il oktyabrın 2-də imzaladığı sərəncamla Fatma Hüseynova Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

**Fatma xanım ötənləri yaxşı xatırlayır:**

–Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda Sabirabada tez-tez gələr, sadə əmək adamları ilə görüşər, onların qayğıları ilə maraqlanardı. O, hər gəlişində mütləq mənim çalışdığım tarlaya da baş çəkərdi. Gördüyümüz işlərlə maraqlanır, xətrimi çox istədiyinə görə nümunəvi pambıqçı kimi mənim barəmdə tez-tez söz açardı. Onun kəndimizə hər gəlişi əsaslı problemlərindən birinin həlli ilə yadda qalırdı. Heç yadımdan çıxmır, bir dəfə soruşdu ki, məndən nə istəyin var? Mən də kəndimizin müasir tipli məktəb binasına ehtiyacı olduğunu xatırlatdım. Qısa müddətdə Qaratəpə kəndində 1176 şagird yerlik orta məktəb binası tikildi, açılışına da gəlmişdi. Bizim briqadamız o illərdə 500 hektar sahədə pambıq əkib-becərirdi.Təbii ki, planı da artıqlaması ilə yerinə yetirirdik. Ancaq daha yüksək məhsul istehsal etmək imkanı da vardı. Bir dəfə ulu öndər tarlaya gələrkən ona dedim ki, əgər torpaqlarımızda meliorasiya tədbirləri aparılsa, məhsuldarlıq daha da çox olar. O, dərhal sahələrdə meliorasiya işlərinin aparılması ilə əlaqədar göstəriş verdi və doğrudan da, göstəricilər gözlədiyimizdən də yüksək oldu.

İndi mən o anları xatırladıqca istər-istəməz qəhərlənirəm, gözlərim dolur. Bir dəfə tarlamıza gələndə pambıqçılardan soruşdu ki, qızlar, aranızda nişanlı olanınız varmı?

Mən qızlarımızın arzusunu ona çatdırdım ki, bəs onlar xarici mebel istəyirlər. Yerindəcə tapşırıq verdi, səhərisi pambıqçı qızlarımız üçün pulsuz-parasız mebel dəstləri göndərildi.

Fatma xanım ulu öndər Heydər Əliyevin ona həmişə “qızım” deyə müraciət etməsini də dərin bir həsrətlə xatırlayır. Deyir ki, nəvazişlə məni bu cür çağırması yadıma düşəndə ulu öndəri yanımda hiss edirəm. Bir dəfə belə bir hal baş vermişdi. Moskvada Ali Sovetin sessiyasında idik. Ulu öndər məni ömür-gün yoldaşı Zərifə xanıma göstərib dedi ki, Fatma çox zəhmətkeşdir, mən onu qızımız Sevildən heç seçmirəm.

Moskva görüşlərinin birində Azərbaycan nümayəndə heyəti onunla birgə şəkil çəkdirirdi. Kənarda dayandığımı görən kimi fotoqrafa dedi ki, əl saxla, mən “qızımı” görmürəm”. Məni dərhal öz yanına çağırdı.

1998-ci ilin Prezident seçkiləri ilə əlaqədar olaraq Sabirabada gəlmişdi, seçicilərlə görüşürdü, mən də onların arasındaydım. Görən kimi dedi ki, heç dəyişməmisən, Fatma. Hər dəfə hansısa bir çətinliklə üzləşəndə sanki yanımdaymış kimi, gözlərim o dahi şəxsiyyəti, əvəzsiz insanı axtarır. Çəkinmədən deyirəm ki bizim hər birimiz bu gün Azərbaycan dövlətinin mövcudluğuna və qazandığı uğurlara görə Heydər Əliyevə borcluyuq. Nə yaxşı ki, onun layiqli davamçısı , möhtərəm İlham Əliyev bu gün dövlətimizin rəhbəridir, ölkəmizi atasının adına yaraşan tərzdə – iftixarla və şərəflə idarə edir.

Fatma Hüseynova Prezident İlham Əliyevlə səmimi görüşləri barədə söz düşəndə deyir ki, Allahın xoşbəxt bəndəsiyəm ki, ata-oğul Əliyevlərin nəzər-diqqəti həmişə üzərimdə olub. Çünki bu ad və soyadlar bizim yeganə güvənc yerimizdir.






Sözsüz ki, yorulmaq bilmədən bu gün də əmək fəaliyyətini davam etdirən, mübarizənin ən ön sıralarında olan xanım qəhrəmanımızın dəyərli fikirlərinə qoşulmamaq və təsdiqləməmək mümükün deyil. Həqiqətən də, ulu öndər Heydər Əliyevin nurlu çöhrəsi bizim qəlbimizə əbədi nur saçan günəş kimidir.

**Səməd HÜSEYNOĞLU,**
**“Xalq qəzeti”nin**
**bölgə müxbiri**